## Yoluxmanın ilkin əlamətləri hansılardır?

Xəstəliyin ilkin əlamətləri həm İİV, həm də hepatit B, C üçün eynidir: ümumi zəiflik, halsızlıq, baş ağrıları, ürəkbulanma. Bu əlamətlər qrip və ya soyuqdəymə zamanı olan əlamətləri xatırladır. Bundan əlavə, qusma, öskürək, zökəm, temperaturun qalxması kimi əlamətlər də ola bilər.

## Viruslara yoluxmaqla bağlı şübhələr səni narahat edirsə, nə etməli?

İİV-dən və hepatitdən qorunma qaydalarına əməl etmədiyin üçün həyəcan keçirirsənsə, onda vaxt itirmədən məsləhət üçün tibb müəssisəsinə müraciət et!

İİV-lə bağlı sualın yaranarsa, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin qaynar xəttinə və inam telefonuna zəng et!

**QAYNAR XƏTT: (012) 408-79-74**

**İnam telefonu: (012) 594-99-24**

Anonimliyə zəmanət verilir!

Buklet Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir. Bukletdə dərc olunanlar Respublika QİÇS-lə Mübarizə Mərkəzi və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə razılaşdırılmışdır.

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

# İİV və HEPATİT B, C

## bunları bilmək vacibdir!



İnsanın İmmunçatışmazlığı Virusu (İİV) və hepatit iyirminci əsrdə milyonlarla insanın həyatına son qoymuşdur. Bu problem bu gün də aktual olaraq qalır. Hər gün minlərlə insan İİV-ə və hepatitə yoluxma təhlükəsi ilə üzləşir. Ən təhlükəlisi isə odur ki, hər iki xəstəliyə eyni vaxtda tutulmaq ehtimalı çox yüksəkdir. Bilirsənmi niyə? Ona görə ki, həm İİV-in, həm də hepatit B, C-nin yoluxma və yayılma yolları demək olar ki, eynidir! Məhz bu səbəbdən İİV-ə yoluxma təhlükəsilə üzləşən insan çox vaxt hepatitə də yoluxa bilər. Eləcə də hepatitə yoluxma riski ilə qarşılaşan insan İİV-ə yoluxma təhlükəsilə də üzləşir.

***İİV-dən özünü qoru! Bil ki, bununla sən hepatit B və C-dən də qorunarsan.***

## İİV və hepatit B və C-yə yoluxma yolları eynidir:

- **qan vasitəsilə**
  - qanköçürmə zamanı
  - dezinfeksiya olunmamış qeyri-steril iynə və şprislərdən təkrar istifadə zamanı
  - manikür, tatuaj, pirsinq edərkən qeyri-steril ləvazimatlardan istifadə zamanı
  - istifadə olunmuş və üzərində qan qalıqları olan bərbər alətlərinin (üzqırxan, qayçı) və diş fırçalarının təkrarən istifadəsi zamanı
- **cinsi yolla**
  - qorunmamış (prezervativsiz) cinsi əlaqə zamanı
  - oral-genital kontaktlar zamanı yoluxmaq mümkündür, xüsusilə ağız boşluğunda açıq yara olduqda
- **İİV və hepatit B, C-yə yoluxmuş anadan uşağa**
  - hamiləlik, doğuş və döşlə əmizdirmə zamanı

## İİV və hepatit B, C ilə çox vaxt risk qruplarına aid olan insanlar yoluxurlar:

- inyeksion narkotik istifadəçiləri
- prezervativsiz cinsi əlaqədə olan, həmçinin cinsi partnyorunu tez-tez dəyişən şəxslər
- kişilərlə cinsi əlaqədə olan kişilər
- İİV və ya hepatit B, C virusu daşıyanın cinsi partnyoru
- pirsinq və tatuaj edənlər
- tibb işçiləri
- tibbi müdaxilə (hemodializ, qanköçürmə, transplantasiya proseduru, stomatoloji müayinə, cərrahi əməliyyat və s.) olunmuş şəxslər
- məhbuslar
- cinsi yolla yoluxan infeksiyası (qonoreya, xlamidiya və s.) olanlar
- İİV və hepatit B, C-nin geniş yayıldığı regionlara səyahət edən insanlar

## İİV və hepatit B, C-dən necə qorunmaq olar? Bunun üçün adi qaydalara əməl etməli:

- inyeksiya zamanı steril şpris və iynələrdən istifadə etməli
- cinsi əlaqə zamanı prezervativdən istifadə etməli
- şəxsi gigiyena vasitələrindən (diş fırçası, üzqırxan və manikür alətləri) fərdi qaydada istifadə etməli
- tatuaj və pirsinq edən zaman birdəfəlik iynə və əlcəklərdən, dezinfeksiya olunmuş alətlərlə işləyən ustanın xidmətlərindən istifadə etməli
- cinsi partnyorlar vaxtaşırı diaqnostik müayinədən keçməli
- hepatit B-yə qarşı peyvənd olunmalı

***Düşünülməmiş addım atmaqla çox vaxt gənclər cinsi həyata tez başlayır və infeksiyalara yoluxma təhlükəsi ilə üzləşirlər.***
***Diqqət! Erkən yaşda cinsi əlaqədə olmağa tələsmə!***
***Cinsi əlaqə zamanı mütləq prezervativdən istifadə et!***
***Bir cinsi partnyora sadiq ol!***